# Etnik təmizləmənin başlanğıcı:

## 1947-ci il qərarının gizlinləri

1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti tərəfindən qəbul edilən qərar Azərbaycan tarixinə dərindən təsir edən hadisələrdən biri oldu. Söhbət "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında qərar"dan gedir. Qərara əsasən, 1948-1950-ci illər arasında Ermənistanda yaşayan 100 minə yaxın azərbaycanlı "könüllülük" prinsipi əsasında Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməli idi. Lakin rəsmi sənədlərdə qeyd olunan bu "könüllülük" ifadəsi əslində reallığı əks etdirmirdi. Bu proses zorakı xarakter daşıyırdı və SSRİ rəhbərliyinin, xüsusilə də Stalin rejiminin etnik təmizləmə siyasətinin bir hissəsi idi.

**(davamı 10-cu səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Keçmiş SSRİ rəhbərliyi köçürülməni Ermənistan SSR-də yaşayan azərbaycanlıların daha əlverişli iqtisadi şəraitdə, xüsusilə Kür-Araz ovalığında yerləşdirilməsi kimi təqdim etsə də bu, azərbaycanlıların tarixi torpaqlarından çıxarılması siyasətini ört-basdır etmək üçün bir vasitə idi. Strateji əhəmiyyət kəsb edən yaşayış məntəqələrində, yeni şəhər və şəhərətrafı ərazilərdə, dəmiryol stansiyaları və magistral yollar yaxınlığında yaşayan əhali xüsusi qəddarlıqla köçürülürdü. Bu məntəqələrdən azərbaycanlıların çıxarılması həm iqtisadi, həm də hərbi-strateji baxımdan ermənilərin xeyrinə demoqrafik dəyişikliklər yaratmağa hesablanmışdı. Qərarın hədəflədiyi bölgələrin seçilməsi də təsadüfi deyildi. Belə ki, 1918-1920-ci illərdə erməni daşnaklarına qarşı müqavimət göstərən və azərbaycanlıların ərazi suverenliyini qorumağa çalışan bölgələr SSRİ dövründə də ermənilərin diqqət mərkəzində idi. Bu bölgələr ermənilər tərəfindən qara siyahıya salınmış və ilk növbədə, köçürülmə siyasətinə məruz qalmışdı. Beləliklə, azərbaycanlı əhalinin köçürülməsi həm tarixi qisasın alınması, həm də Ermənistan SSR-də azərbaycanlıların demoqrafik üstünlüyünün ləğv edilməsi məqsədi güdürdü. 1948-1953-cü illər arasında həyata keçirilən köçürülmə siyasəti çərçivəsində on minlərlə azərbaycanlı ailəsi Ermənistan SSR-dən çıxarıldı və Azərbaycan SSR-ə yerləşdirildi.

Məcburi köçürülmə nəticəsində Ermənistanda yaşayan azərbaycanlıların sayı kəskin şəkildə azaldı və onların tarixi torpaqlarda mövcudluğu təhlükə altına düşdü. Bu siyasət, həmçinin azərbaycanlıların iqtisadi və sosial həyatında dərin fəsadlara yol açdı. Köçürülmə prosesi məcburi xarakter daşıdığından insanlar öz yurdlarından zorla çıxarılır, təzminat almadan yeni yerlərə göndərilirdi. SSRİ rəhbərliyi bu köçürülmənin təşkilinə böyük vəsait ayırsa da köçkünlərin yerləşdirilməsi və yaşayış şəraitinin təmin olunmasında ciddi problemlər var idi. Kür-Araz ovalığında əksər ailələr normal mənzillərlə təmin olunmurdular. Ağır iqlim şəraiti və infrastruktursuzluq nəticəsində isə insanlar çətinliklərlə üzləşmişdilər.



Bu qanun azərbaycanlı əhalinin Ermənistan SSR-də etnik təmizləmə siyasətinə məruz qalmasının başlanğıc nöqtələrindən biri kimi qiymətləndirilməlidir. 1940-cı illərdə Ermənistanda yaşayan azərbaycanlılar təzyiqlərə, torpaq müsadirələrinə və mədəni hüquqlarının məhdudlaşdırılmasına məruz qalırdılar. Köçürülmə qərarı da məhz bu siyasətin bir hissəsi olaraq həyata keçirildi və nəticədə Ermənistan SSR-də azərbaycanlı əhalisinin sayı əhəmiyyətli dərəcədə azaldı. Yəni 1947-ci ildə verilən qərar SSRİ-nin demoqrafik siyasətində etnik məsələlərin necə manipulyasiya edildiyini göstərən nümunələrdəndir. Köçürülmə siyasəti insanların hüquqlarını kobud şəkildə pozmuş, onların mədəni irsinin məhv edilməsinə və tarixi yurd yerlərindən didərgin düşməsinə səbəb olmuşdu. Bu qərarın nəticələri yalnız köçürülən ailələr deyil, bütövlükdə Azərbaycan xalqı üçün ağır zərbə olaraq qalır. 1947-ci il qərarı yalnız başlanğıc idi. Çünki Ermənistan SSR-də azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə siyasəti bu qərarla daha geniş miqyas aldı və sonrakı onilliklərdə davam etdirildi. 1948-ci ildən etibarən azərbaycanlı ailələrin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi geniş miqyas aldı. SSRİ rəhbərliyi bu köçürülməni "iqtisadi inkişaf" və "torpaq islahatları" adı altında həyata keçirsə də prosesin əsas məqsədi Ermənistan SSR-də azərbaycanlıların demoqrafik mövqelərini zəiflətmək, onları tarixi yurdlarından uzaqlaşdırmaq idi. 1948-1953-cü illər arasında da on minlərlə azərbaycanlı ailəsi Ermənistan SSR-dən çıxarıldı. Nəticədə orada yaşayan azərbaycanlıların sayı əhəmiyyətli dərəcədə azaldı və onların tarixi yurd yerlərində mövcudluğu təhlükə altına düşdü.

Azərbaycanın müstəqillik dövründə bu hadisələrə hüquqi və tarixi qiymət verilməsi məsələsi dəfələrlə gündəmə gətirilib. Bu faciəvi hadisələr unudulmamalı, tarixi ədalətin bərpası üçün həm hüquqi, həm də mədəni səviyyədə ciddi addımlar atılmalıdır.

**Jalə QASIMZADƏ,**
**"Respublika".**

Respublika.- 2024.- 22 dekabr (№ 283).- S.1;10.